AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ
KİTABŞÜNASLIQ VƏ NƏŞRİYYAT İŞİ KAFEDRASI

**Magistratura səviyyəsi üçün**

# ƏDƏBİYYAT NÖVLƏRİNİN REDAKTƏSİ

## PROQRAM

**Bakı-2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**KİTABŞÜNASLIQ VƏ NƏŞRİYYAT İŞİ KAFEDRASI**

## Magistratura səviyyəsi üçün

**İxtisasın şifri və adı:**
**050205 – Kitabşünaslıq**
**İxtisaslaşma:**
**Nəşriyyat işi və redaktəetmə**

**MİF-B05-6**

# ƏDƏBİYYAT NÖVLƏRİNİN REDAKTƏSİ

**fənnindən**

# PROQRAM

*Azərbaycan Respublikası Təhsil Nazirinin əmri ilə fənn proqramı kimi təsdiq edilmişdir.*

**Bakı Universiteti Nəşriyyatı**
**Bakı - 2021**

**Tərtibçi:** **Knyaz Aslan**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Redaktor:** **Ələmdar Bayramov**
filologiya üzrə fəlsəfə doktoru, dosent

**Rəyçilər:** **Əliağa Cəfərov**
filologiya üzrə elmlər doktoru
(Azərbaycan MEA "Akademkitab"ın direktoru)

**Nailə Mehrəliyeva**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
(Bakı Dövlət Universiteti)

**Rasim Süleymanov**
filologiya üzrə fəlsəfə doktoru, dosent
(Bakı Dövlət Universiteti)

*© Knyaz Aslan, 2021*

# İZAHAT VƏRƏQİ

**“Ədəbiyyat növlərinin redaktəsi” (MİF-B05-6)** müstəqil fənn kimi Kitabşünaslıq və Nəşriyyat işi kafedrasında 050205 – “Kitabşünaslıq” ixtisası üzrə magistratura səviyyəsində “Nəşriyyat işi və redaktəetmə” ixtisaslaşmasında İxtisaslaşma Fənləri bölümündə tədris olunur. Cəmi 45 auditoriya saatı (30 saat mühazirə, 15 saat seminar) həcmində nəzərdə tutulmuş bu fənn tələbələrə III semestrdə öyrədilir. Kurs imtahanla başa çatır.

**Fənnin məqsədi** müasir dövrdə redaktə məsələlərinin metodoloji əsaslarının mənimsənilməsi, redaktor təhlilinin vəzifələri və məzmunu, redaktə metodikasının ümumi qaydaları haqqında biliklər sistemi, ümumi redaktə qaydalarının inkişafı və konkretləşdirilməsi, və s. haqqında nəzəri və təcrübi bilikləri tələbələrə öyrətməkdən ibarətdir.

**Fənnin vəzifəsinə bu məsələlər daxildir:**

- Redaksiya-nəşriyyat prosesində kitab, ədəbiyyat, ədəbi əsər, əlyazma və mətn anlayışlarının mahiyyətinin açılması;
- Cəmiyyətdə insanlar arasında nitq ünsiyyətinin tarixi mərhələləri: “şifahi söz yaradıcılığı – yazı – ədəbiyyat – kütləvi kommunikasiya” sistemi barədə elmi fikirlərin ümumiləşdirilməsi;
- Bir-biri ilə qarşılıqlı əlaqədə olan və müəyyən şəkildə nizama salınan əsərlər qrupu – ədəbiyyat aləmi, eləcə də sistem, qruplaşdırma, təsnifləşdirmə anlayışlarının izah olunması;
- Ədəbiyyatın tipologiyası (tiplərə və növlərə bölünməsi) probleminin araşdırılması və aydınlaşdırılması;
- Redaktə işinin nəzəriyyə və təcrübəsində ədəbiyyatın tipologiyasının əhəmiyyətinin dəqiqləşdirilməsinə diqqət yetirilməsi;
- Ədəbiyyatın növləri haqqında anlayışın təhlil edilib qiymətləndirilməsi;
- Bədii (obrazlı) ədəbiyyat, idraki (fəlsəfi) ədəbiyyat, ədəbi-idraki (publisistik) ədəbiyyat anlayışları haqqında məlumatın izah edilməsi.

**Fənnin məzmununun mənimsənilməsi səviyyəsinə verilən tələblər:**

“Ədəbiyyat növlərinin redaktəsi” fənninin tədrisindən sonra tələbə bu məsələləri **ilməlidir:**

- Ədəbi əsərlərin tiplərinin və təsnifləşdirilməsinin prinsiplərini;

- Ədəbi əsərlərin janrlar sistemini;

- Epik əsərlərin (hekayə, novella, povest, roman, oçerk və s.) növlərini, əhəmiyyətini və redaktə üsullarını;

- Lirik əsərlərin (şeir, oda, elegiya, sonet, poema və s.) növlərini, əhəmiyyətini və redaktə üsullarını;

- Dramatik əsərlərin (dram, komediya, faciə və s.) növlərini, əhəmiyyətini və redaktə üsullarını;

- Keçmiş və indiki redaktor təcrübəsinin ümumiləşdirilməsini;

Sadalanan biliklərin mənimsənilməsini nəzərə almaqla tələbə bu işləri **bacarmalıdır:**

- Nəşrlərin müxtəlifliyini bir-birindən fərqləndirməyi və onları sistemləşdirməyi:

- Kitab nəşrlərinin sistemləşdirilməsinin ümumi sxeminin xüsusiyyətlərini fərqləndirməyi;

- Nəşr növünün müəyyənləşdirilməsi üçün əsaslar üzərində işləməyi. Başqa sözlə, a) İnformasiyanın ötürülməsi üçün əlamətlər formasını (nəşrin növü: mətn, izonəşrlər, notlar, xəritələr); b) Maddi quruluşunu (nəşrin növü: kitab, jurnal, vərəq); c) Dövriliyini və strukturunu (nəşrin növü: dövri, dövri olmayan, ardı davam edən) aydınlaşdırmağı.

Fənnin öyrədilməsi nəticəsində tələbə bu vərdişlərə **yiyələnməlidir:**

- Kitab nəşrində ədəbiyyatın təsnifləşdirilməsi sxeminin mahiyyətini şərh etmək bacarığına;

- İdraki ədəbiyyatın nəşr tipləri: elmi ədəbiyyat; ictimai-siyasi ədəbiyyat; elmi-kütləvi ədəbiyyat; tədris ədəbiyyatı; məlumat-informasiya ədəbiyyatı; rəsmi ədəbiyyat; istehsalat ədəbiyyatı; soraq ədəbiyyatı üzərində redaktə işi aparmaq vərdişlərinə;

- Bədii ədəbiyyatın nəşr tipi: ədəbi-bədii əsərlər, eləcə də uşaq və gənclər üçün ədəbiyyatın nəşr tipi: uşaq və gənclər üçün nəşrlər üzərində redaktə işi aparmaq vərdişlərinə.

## MÖVZULAR ÜZRƏ SAATLARIN BÖLGÜSÜ

| *Bölmələrin və mövzuların adı* | *Saatların miqdarı* | | |
|---|---|---|---|
| | *Cəmi* | *Müh.* | *Məş.* |
| ***1-ci mövzu.*** "Ədəbiyyat növlərinin redaktəsi" kursunun vəzifələri və əhəmiyyəti | 4 | 2 | |
| ***2-ci mövzu.*** Ədəbi əsərlərin və kitab nəşrlərinin sistemləşdirilməsi | 4 | 2 | 2 |
| ***3-cü mövzu.*** İctimai-siyasi ədəbiyyatın redaktəsi | 4 | 2 | |
| ***4-cü mövzu.*** Elmi ədəbiyyatın redaktəsi | 4 | 2 | 2 |
| ***5-ci mövzu.*** Elmi-kütləvi ədəbiyyatın redaktəsi | 4 | 2 | |
| ***6-cı mövzu.*** Elmi-məlumat ədəbiyyatının redaktəsi | 4 | 2 | 2 |
| ***7-ci mövzu.*** İstehsalat-texniki ədəbiyyatın redaktəsi | 4 | 2 | |
| ***8-ci mövzu.*** Tədris ədəbiyyatının redaktəsi | 4 | 2 | 2 |
| ***9-cu mövzu.*** Klassik bədiiədəbiyyat əsərlərinin nəşrləri və redaktəsi | 4 | 2 | 2 |
| ***10-cu mövzu.*** Müasir bədii ədəbiyyatın redaktəsi | 4 | 2 | |
| ***11-ci mövzu.*** Uşaq ədəbiyyatının redaktəsi | 4 | 2 | 2 |
| ***12-ci mövzu.*** Soraq-məlumat ədəbiyyatının redaktəsi | 4 | 2 | |
| ***13-cü mövzu.*** Reklam nəşrlərinin redaktəsi | 4 | 2 | 2 |
| ***14-cü mövzu.*** Dövri mətbuat materiallarının redaktəsi | 4 | 2 | |
| ***15-ci mövzu.*** Nəşriyyatda resenziyalaşdırma işi | 4 | 2 | 1 |
| ***Saatların ümumi cəmi*** | **45** | **30** | **15** |

| | | | |
|---|---|---|---|
| | | | |

## KURSUN MƏZMUNU

### *1-ci mövzu*
### “Ədəbiyyat növlərinin redaktəsi” kursunun predmeti və vəzifələri

“Ədəbiyyat növlərinin redaktəsi” anlayışının ümumi xarakteristikası. “Ədəbiyyat növlərinin redaktəsi” kursunun öyrənilməsinin əhəmiyyəti, predmeti və vəzifələri. Fənni quruluşu, əsas tədris vəsaitlərinin səciyyəvi cəhətləri və və tədris metodikası. Kursun tədrisi ilə bağlı magistrantlarla aparılan müstəqil işin forma və üsulları. Fənnin başqa elm sahələri ilə qarşılıqlı əlaqəsi.

“Ədəbiyyat növlərinin redaktəsi” fənninin öyrənilməsində mühüm rol oynayan əsas vəsaitlərin, məcmuələrin, elmi məqalələrin və əsas mənbələrin xüsusiyyətləri [1], [2], [3], [10].

### *2-ci mövzu*
### Ədəbi əsərlərin və kitab nəşrlərinin sistemləşdirilməsi

Kitab, nəşr və digər çap məhsulu müəllifin və redaktorun, nəşriyyat və mətbəə kollektivlərinin birgə əməyinin nəticəsi kimi. Redaksiya-nəşriyyat prosesində kitab, ədəbiyyat, ədəbi əsər, əlyazma və mətn anlayışları. Sistem, qruplaşdırma, təsnifləşdirmə anlayışlarının izahı. Ədəbiyyatın tipologiyası (tiplərə və növlərə bölünməsi) problemi. Redaktə işinin nəzəriyyə və təcrübəsində ədəbiyyatın tipologiyasının əhəmiyyəti. Ədəbiyyatın növləri haqqında anlayış. Bədii (obrazlı) ədəbiyyat. İdraki (fəlsəfi) ədəbiyyat. Ədəbi-idraki (publisistik) ədəbiyyat.

Ədəbi əsərlərin tiplərinin və təsnifləşdirilməsinin prinsipləri. Ədəbi əsərlərin janrlar sistemi. Epik əsərlər (hekayə, novella, povest, roman, oçerk və s.). Lirik (şeir, oda, elegiya, sonet, poema və s.). Dramatik (dram, komediya, faciə və s.).

Nəşrlərin müxtəlifliyi və onların sistemləşdirilməsi. Kitab nəşrləri və onların tiplərə bölünməsi. Kitab nəşrləri və onların təsnifləşdirilməsi.

Kitab nəşrində ədəbiyyatın təsnifləşdirilməsi sxemi. İdraki ədəbiyyatın nəşr tipləri. Bədii ədəbiyyatın nəşr tipi. Uşaq və gənclər üçün ədəbiyyatın nəşr tipi [1], [2], [3], [10].

## *3-cü mövzu*
## İctimai-siyasi ədəbiyyatın redaktəsi

İctimai-siyasi ədəbiyyatın xüsusiyyətləri və predmeti. Elmi nəşrlərin tipləri: a) təbliğat xarakterli nəşrlər; b) təşviqat xarakterli nəşrlər. Elmi ədəbiyyatın növləri: məqalə, oçerk, pamflet, felyeton və s. İctimai-siyasi ədəbiyyatın sosial funksiyaları və oxucu kütləsi.

Təbliğat ədəbiyyatının məzmunu üzərində redaktor işi. Əlyazmanın məzmununun təhlili və qiymətləndirilməsi. Təsviri, nəzəri və izahedici mətlər. Təbliğat kitablarında ifadə üsullarının təhlili və dəyərləndirilməsi.

Təşviqat ədəbiyyatının məzmunu üzərində redaktor işi. Redaktor təhlilinin ümumi vəzifələri. Əsərin faktik əsaslarının təhlili və qiymətləndirilməsi.

Faktların üç başlıca tələbə (tipik, siyasi cəhətdən əhəmiyyətli və oxuculara güclü təsir göstərməsi) cavab verməsi. Təşviqat ədəbiyyatında faktların yaradıcı şəkildə şərh edilməsi.

İctimai-siyasi ədəbiyyatın dili və üslubu üzərində iş. Mətndə rəmzlərdən və şərti işarələrdən istifadəyə yol verilməməsi. Yazılı ədəbi nitq normalarının məcburi xarakter daşıması. İctimai-siyasi ədəbiyyatın publisistik üslubu [1], [2], [3], [10].

## *4-cü mövzu*
## Elmi ədəbiyyatın redaktəsi

Elmi ədəbiyyatın predmeti, məqsədi və oxucu marağı. Elmi ədəbiyyat elmi kommunikasiyanın vasitələrindən və ədəbiyyatın növlərindən biri kimi. Elmi nəşrlərin tipləri: a) nəzəri xarakterli nəşrlər; b) eksperimental xarakterli nəşrlər; c) mənbəşünaslıq xarakterli nəşrlər.

Elmi ədəbiyyatın növləri: monoqrafiya, dissertasiya, avtoreferat, icmal, məqalə, məruzə, tezis, qısa məlumat, resenziya, elmi biblioqrafiya və

s. Dövriliyindən və strukturundan asılı olaraq elmi ədəbiyyatın növləri: dövri olmayan nəşrlər, dövri nəşrlər, ardı davam edən nəşrlər.

Elmi ədəbiyyatın məzmunu üzərində redaktor işi. Elmi ədəbiyyatın məzmununun əsası – elmi anlayışlar sistemi. Elmi ideyalar, fenomenal biliklər, empirik faktlar, metodlar, elmi problemin mahiyyəti, nəzəriyyə, qanun, elmi təsnifat, tipologiya, hipotezlər və s. kimi terminlərin izahı.

Elmi ədəbiyyatın quruluşu üzərində redaktor işi. Elmi ədəbiyyatın dili və üslubu üzərində redaktor işi. Elmi ədəbiyyatın soraq aparatı [1], [2], [3], [10].

### *5-ci mövzu*
### Elmi-kütləvi ədəbiyyatın redaktəsi

Müasir dövrdə elmlərin kütləviləşməsi problemi. Biliyin kütləviləşməsinin mütərəqqi ənənələri. Müstəqil cəmiyyət quruculuğunda elmlərin rolu. Elmi-kütləvi ədəbiyyatın predmeti, məqsədi və oxucu marağı. Elmi-kütləvi ədəbiyyatın funksiyaları, prinsipləri və oxucu auditoriyası.

Elmi-kütləvi nəşrlərin tipləri: a) qeyri-mütəxəssis oxucular üçün elmi nəşrlər; b) qarışıq sahələrin mütəxəssiləri üçün elmi nəşrlər. Elmi-kütləvi ədəbiyyatın növləri: oçerk, məqalə, tərcümeyi-hal, elmi-kütləvi məruzə və s. Elmi-kütləvi ədəbiyyatın tarixinə bir baxış.

Kitablarda elmə dair materialların ifadə metodları. İfadə tərzinin kütləviiyi. Elmə dair kitablarda maraq və əyləncə dairəsi.

Elmi-kütləvi ədəbiyyatın məzmunu üzərində redaktor işi. Elmi-kütləvi ədəbiyyatın dili və üslubu üzərində redaktor işi.Elmi-kütləvi ədəbiyyatın illüstrasiya materialları. Elmi-kütləvi ədəbiyyatın soraq aparatı [1], [2], [3], [10].

### *6-cı mövzu*
### Elmi-məlumat ədəbiyyatının redaktəsi

Elmi-məlumat ədəbiyyatının məzmunu, tərkibi və funksiyaları. Elmi-məlumat ədəbiyyatının nəşrinə hazırlığın təşkili. Elmi-məlumat ədəbiyyatının xüsusiyyətləri.

Elmi-məlumat nəşrlərinin tipləri: a) biblioqrafik nəşrlər; b) referativ nəşrlər; c) icmal nəşrləri. Elmi-məlumat ədəbiyyatının növləri: biblioqrafiya, referat, icmal, annotasiya və s. Biblioqrafik məlumat kitablarının, biblioqrafik göstəricilərin və biblioqrafik vəsaitlərin redaktəsi. Mövzu və şəxsi göstəricilər üzərində redaktə işi.

Referativ nəşrlərin əsas hissəsi üzərində redaktor işinin vəzifələri, məzmunu və metodları. İnformativ referat, indikativ referat, monoqrafik referat, toplu referat, analitik referat, fraqmentli referat, məqsədli referat, qısa referat, geniş referat və s.

Analitik icmalların redaktəsi. Giriş, analitik hissə, tövsiyələr.

Elmi-məlumat nəşrlərinin aparatı üzərində iş [1], [2], [3], [10].

## *7-ci mövzu*
## İstehsalat-texniki ədəbiyyatın redaktəsi

İstehsalat-texniki ədəbiyyatın ümumi xüsusiyyətləri. İstehsalat-texniki nəşrlərin tipləri: a) əməli rəhbərliyə dair nəşrlər; b) normativ-istehsalat nəşrləri; c) qabaqcıl təcrübənin təbliği üzrə nəşrlər. İstehsalat-texniki ədəbiyyatın növləri: monoqrafiya, vəsait, təlimat, məqalə və s.

İstehsalat-texniki ədəbiyyatın redaktor təhlilinin əsas meyarları. İstehsalat-texniki ədəbiyyatın əlyazma mətni üzərində redaktor işi.

Kütləvi istehsalat-texniki ədəbiyyatın redaktəsi zamanı dil və üslub üzərində iş. İstehsalat-texniki ədəbiyyatın dilçilik-üslubiyyat cəhətdən özünəməxsusluğu. Xarakterik dilçilik-üslubiyyat səhvləri. Dilin qısa, aydın və yığcam şəkildə ifadəsi qaydaları [1], [2], [3], [7].

## *8-ci mövzu*
## Tədris ədəbiyyatının redaktəsi

Tədris ədəbiyyatının ümumi xüsusiyyətləri. Tədris ədəbiyyatı nəşrlərinin sırası.

Tədris nəşrlərinin tipoloji əlamətləri. Məqsəd istiqaməti. Predmeti. Oxucu ünvanı. Ali məktəblər üçün xüsusi tədris ədəbiyyatı. Orta ixtisas məktəbləri üçün xüsusi tədris ədəbiyyatı. Orta ümumtəhsil məktəbləri üçün xüsusi tədris ədəbiyyatı. Texniki-peşə təhsili məktəbləri üçün xüsusi

tədris ədəbiyyatı. Məktəbəqədər tərbiyə müəssisələri üçün xüsusi tədris ədəbiyyatı. Proqram-metodik nəşrlər. Təlim nəşrləri. Köməkçi nəşrlər. Tədris nəşrlərinin növləri. Proqramlar. Dərsliklər. Dərs vəsaitləri. Metodik vəsaitlər. Praktikumlar.

Dərsliklər tədris nəşrlərinin əsas növü kimi. Müxtəlif məktəb tipləri üçün dərsliklərin redaktə xüsusiyyətləri. Kütləvi dərsliklərin redaktə metodikası. Dərsliyin məzmunu, quruluşu, kompozisiyası.

Redaktor təhlilinin xüsusiyyətləri. Materialın şərhinin elmi səviyyəsi. Faktik materiallar. Metodik aparat. Dərsliyin dili. Dərsliyin qrafik materialı.

Tədris kitabları üzərində redaktor işi. Dərs vəsaitlərinin məzmunu.

Tədris ədəbiyyatının dil və üslub məsələlərinin qiymətləndirilməsi [1], [2], [3], [10].

### *9-cu mövzu*
### Klassik bədii ədəbiyyat əsərlərinin nəşrləri və redaktəsi

Ədəbi-bədii əsərlərin redaktə xüsusiyyətləri. Ədəbi-bədii nəşrlərin tipologiyası. Klassik ədəbi-bədii nəşrlərin janrları və tipləri. Klassik bədii ədəbiyyatın nəşr növləri.

Müasir dövrdə klassik bədii ədəbiyyat nəşrlərinin redaktə vəziyyəti. Klassik ədəbiyyat nəşrinin prinsipləri və problemləri. Klassik ədəbi-bədii nəşrlərin redaktəsinə verilən tələblər və redaktorun vəzifələri.

Şifahi xalq ədəbiyyatı nümunələrinin redaktə xüsusiyyətləri. Folklor və nəşr tipləri. Aşıq ədəbiyyatının nəşri və redaktə işi.

Redaktə nəzəriyyəsi və təcrübəsində mətnşünaslığın yeri və rolu. Azərbaycan mətnşünaslığının əsas inkişaf mərhələləri.

Klassik ədəbi-bədii nəşrlərin mətn mənbələri. Əlyazma üzərində işin əsas mərhələləri. Klassik şair və yazıçıların ədəbi mətnlərinin nəşri vəziyyəti.

Milli mədəni sərvətə dövlət qayğısı. Klassik şair və yazıçıların əsərlərinin müasir nəşrləri. Uğurlar və qüsurlar [1], [2], [7], [12].

### *10-cu mövzu*

## Müasir bədii ədəbiyyatın redaktəsi

Bədii ədəbiyyat nəşrinin təşkili prinsipləri. Bədii əsərlərin qiymətləndirilməsi meyarları. Müasir bədii ədəbiyyatın nəşrləri.

Müasir ədəbi-bədii əsərlər redaktor təhlilinin obyekti kimi. Bədii əsərdə redaktor təhlilinin metodikası. Bədii əsərin təhlili prinsipləri. Əsərin məzmun və forma vəhdəti. Əsərin süjeti üzərində redaktə işi. Müasir əsdəbi-bədii əsərlərin müəllifi ilə redaktor işinin məzmunu. Redaktor və müəllif əməkdaşlığı. Müəllifin (şair, yazıçı, publisist) fərdi yaradıcılıq üslubuna qayğı və diqqət.

Müxtəlif janrlarda yazılmış müasir bədii əsərlərin redaktə xüsusiyyətləri. Lirik əsərlərin redaktəsi. Epik əsərlərin redaktəsi. Dramatik əsərlərin redaktəsi. Bədii-publisistik əsərlərin redaktəsi. Tərcümə əsərlərinin redaktəsi [1], [2], [3], [9].

### *11-ci mövzu*
## Uşaq ədəbiyyatının redaktəsi

Uşaq ədəbiyyatı anlayışının izahı. Uşaq ədəbiyyatının məzmunu, məqsədi, vəzifələri və əhəmiyyəti.

Uşaq ədəbiyyatının pedaqoji və psixoloji xüsusiyyətləri. Gənc nəslin mənəvi tərbiyəsində uşaq ədəbiyyatının rolu.

Uşaq kitablarının strukturu. Uşaq kitablarının təsnifatı. Uşaq kitablarının janrları, növləri və formaları.

Azərbaycanda uşaq ədəbiyyatının nəşrləri və əsas istiqamətləri. "Uşaq və yeniyetmələr üçün ədəbiyyat", "Məktəblinin kitabxanası", "Fantastika kitabxanası" və s. seriyaları.

Uşaqlar üçün elmi-kütləvi kitabların redaktəsi. Uşaqlar üçün soraq-məlumat kitablarının redaktəsi.

Uşaq ədəbiyyatının oxucu dairəsi. Uşaq ədəbiyyatının redaktə xüsusiyyətləri. Uşaq kitablarında dil və üslub məsələləri.

Uşaq kitablarında illüstrasiyalar. Şəkilli və əyləncəli kitabların nəşrə hazırlanması. Müasir uşaq ədəbiyyatının problemləri [1], [2], [3].

### *12-ci mövzu*

## Soraq-məlumat ədəbiyyatının redaktəsi

Soraq-məlumat ədəbiyyatına verilən əsas tələblər və soraq nəşrlərinin tipologiyası. Soraq-məlumat nəşrlərinin növləri.

Azərbaycan soraq-məlumat ədəbiyyatının yaranması, formalaşması və inkişaf xüsusiyyətləri. Soraq-məlumat nəşrlərinin sahə, mövzu, məzmun baxımından təhlili. Sahə və mövzu ensiklopediyalarının redaktə xüsusiyyətləri. Universal ensiklopediya nəşrlərində redaktorun elmi-metodik baxımdan hazırlıq işləri.

Ensiklopediya məqalələrinin redaktəsi. Ensiklopedik lüğətlərin nəşri və inkişafı məsələləri.

Dilçilik (linqvistik) lüğətlərinin növləri və redaktəsi. Lüğətlərin nəşrə hazırlanması, quruluşu və tərtibi məsələləri. Orfoqrafiya, orfoepiya və izahlı lüğətlərinin redaktə xüsusiyyətləri. İkidilli və çoxdilli lüğətlərin redaktə xüsusiyyətləri.

Soraq-məlumat nəşrlərinin redaktəsi. Soraq-məlumat nəşrlərinin inkişaf yolları və optimallaşdırılması [1], [2], [3], [10].

### *13-cü mövzu*
### Reklam nəşrlərinin redaktəsi

Reklam nəşrlərinin tipoloji əlamətləri. Reklam nəşrlərinin təşkilində redaktorun rolu. Reklam nəşrlərinin mətninin hazırlanmasında redaktorun rolu. Reklam nəşrlərinin bədii tərtibatında redaktorun qiymətləndirmə meyarları. Reklam nəşrlərinin mühüm ünsürləri üzərində redaktor işi [1], [2], [3], [10].

### *14-cü mövzu*
### Dövri mətbuat materiallarının redaktəsi

Kütləvi infornmasiya vasitələrində (KİV) redaktə işi. Qəzet və jurnalların redaktəsinin vəzifələri. KİV-də redaktənin məntiqi əsasları. Müxbir əlyazmasının kompozisiyası. Müxbirlərin və kənar müəlliflərin materiallarına sərlövhələrin seçilməsi. Redaksiyaya daxil olan

əlyazmalarda fakt materialının qiymətləndirilməsi. Məna səhvlərinin aradan qaldırılması.

Dövri mətbuatda dil və üslub məsələlərinə diqqət. Söz, ifadə və termin yanlışlığı. Qəzet və jurnal dilində arxaizmlər və neologizmlər. Mətbuatda izafətlər, qarşılıqlar, artıq sözlər, ixtisarlar və dəftərxana üslubu. Mətbuatda vasitəli və vasitəsiz nitqdən istifadə [1], [2], [3], [12].

### *15-ci mövzu*
### Nəşriyyatda resenziyalaşdırma işi

"Resenziya" anlayışının izahı. Resenziyalaşdırmanın (resenziya yazılmasının, rəy verilməsinin) əhəmiyyəti. Resenziyalaşdırmanın prinsipləri və resenziyaçıya (rəyçiyə) verilən tələblər. Resenziyanın (rəyin) tipləri və növləri. Nəşriyyatda resenziyalaşdırma işinin təşkili.

Resenziyalaşdırmanın qaydaları. Resenziyalaşdırmanın metodikası [1], [2], [3], [11].

## ƏDƏBİYYAT

### *Azərbaycan dilində*

*1. Aslan K. Redaktənin aktual problemləri: müasir xüsusiyyətlər, məqsəd və vəzifələr, texnoloji tələblər: Elmi məqalə // Kitabxanaşünaslıq və İnformasiya: Elmi-nəzəri və praktiki jurnal, 2014, №3 (15), s.36-50.*

*2. Aslan K. Redaktor fəaliyyətinin əsas istiqamətləri: Elmi məqalə // Kitabşünaslıq və Nəşriyyat işi: Elmi-nəzəri və təcrübi jurnal 2014, №2 (16), s.3-13.*

*3. Aslan K. Redaktorun məqsəd və vəzifələri: Elmi məqalə // Kitabxana.az: Müastəqil elmi, metodiki və praktiki jurnal, 2014, №2-3 (16), s.5-8.*

*4. Aslan K. Reklam nəşrlərinin xüsusiyyətləri: Elmi məqalə // Kitabxanaşünaslıq və İnformasiya: Elmi-nəzəri və praktiki jurnal, 2015, №1 (16), s.27-47.*

*5. Aslan K. Reklam nəşrlərinin mahiyyəti və redaktə xüsusiyyətləri: Elmi məqalə // Kitabşünaslıq və Nəşriyyat işi: Elmi-nəzəri və praktiki jurnal, 2015, №1, s.39-45.*

*6. Aslan K. Redaktənin əsas xüsusiyyətləri və aktual problemləri: Elmi məqalə // Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal, 2015, №2 (94), s.316-319.*

*7. Aslan K. Redaktor fəaliyyətinin istiqamətləri: Elmi məqalə // Sivilizasiya: Elmi-nəzəri və praktiki jurnal (Bakı Avrasiya Universitetinin nəşri), 2015, №8, s.76-81.*

*8. Aslan K. Reklam nəşrlərinin redaktə xüsusiyyətləri: Elmi məqalə // Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal, 2015, №4 (96), s.263-266.*

*9. Aslan K. Redaktor ixtisaslaşmasının tiplərinə dair: xüsusiyyətlər, vəzifələr, tələblər: Elmi məqalə // Kitabxanaşünaslıq və İnformasiya: Elmi-nəzəri və praktiki jurnal, 2016, №2-3 (20-21), s.27-40.*

*10. Aslan K., Tahirqızı Ş., Mehrəliyeva N. Nəşriyyat işi və redaktə məsələləri: Tədris-metodik vəsait. – Bakı: Müəllim nəşriyyatı, 2018, 384 s.*

*11. "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanunu: 30 may 2000-ci ildə qəbul olunmuşdur; №887-İQ // "Azərbaycan" qəzeti, 2000, 21 iyun.*

*12. Nəşriyyat işi (İdarəetmə. Marketinq. Müəlliflik hüququ. Redaktə. Tərtibat. İstehsal). – Bakı: Yeni Nəsil, 2001. – 218 s.17.*

*13. Rüstəmli A. Ədəbi redaktənin əsasları: Dərs vəsaiti. Bakı: Gənclik, 2018. – 216 s.*

*14. Vəliyev İ. Redaktənin əsasları: Nəzəriyyə və təcrübə. – Bakı: Günəş, 2009, 404 s.*

*15. Vəli İ. Ədəbi-bədii və uşaq kitablarının redaktəsi: Dərslik. Bakı: "Azərbaycan Milli Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, 2002, 200 s.*

**_Rus dilində_**

*16. Голуб И.Б. Литературное редактирование 2-е изд., испр. и доп. Учебник и практикум. – Москва: Юрайт, 2017, 432 с.*

*17. Розенталь Д.Э. Литературное редактирование. Учебное пособие. – Москва: Юрайт, 2017, 432 с.*

*18. Зуева Т.А., Иванова Е.Н. Стратегии литературного редактирования: Учебное пособие. – Москва-Берлин: Директ-Медиа, 2015, 176 с.*

==========================================

Ünvan: Az 1148. Bakı şəhəri,
Zahid Xəlilov küçəsi, 23.
Bakı Universiteti Nəşriyyatı.